M. MYŞFIQ

АРХИВ

ир3

# VURUŞMALAR

26885

(Oqtjabra hedijje)

894.3-1
M-97

Azərnəşr — 1932

1932
512
894.362-1
M 94

M. MYŞFIQ

# VURUŞMALAR

*(Oqtjabra hədijə).*

AZƏRNƏŞ
Bakь-1932

17374
05523

Redaqtoru:
H. MEHTI.
Texredaqtoru:
Z. AƢAJEV.
Buraqьcь:
H. RƏHIMOV.

Baş Mətbuat Mydirligi Myvəkkili № 6530. ADN 400 Sifariş 1057
Tirazь 5000

Istehsalata verilmiş 17/XI-32. Capa imzalanmьş 8/XII-32.
Cap listi 2 1/4 Kaƣьz formatь 82×110.
*AZƏRNƏŞR MƏTBƏƏSINDƏ BASЬLDЬ.*
Bakь, Balşoj-Marsƣoj və Ƣrasno-Presnenski kycələrin tinində
№ 16/36.

# BAŞLANƢЬÇ



Qulaq verin uşaqlar
Sizinlə səhbətim var.
Bu səhbət coq şirindir
Mə'nalьdьr, dərindir.
Fikriniz məndə olsun,
Başa dyşməjən sorsun.
Sizə vuruşmalardan,
Danьşacaƣam əl'an.

—



Iman dava sөzyny
Eşidinçə yzyny
Şadlьq gylyşy sardь,
Bir qəhqəhə qopardь.
Sөjlə joldaş myəllim
Davanь mən də bilim.
Iman dəçəl uşaqdьr.
Hər işi vuruşmaqdьr.
Dava sөzy gələndə
Ruhu ucur bədəndə.

—

Uşaqlar dinləjirdi
Myəllim sөjləjirdi:
—Bu dava o davadan
Dejil a joldaş Iman!
Bu çahan davasьdьr.
Ɵlkələr ƣoƣasьdьr.

## DYNJA DAVASЬ.



Myharəbə xəbəri
Qapamьşdь elləri.
Jajьlьnça bu xəbər
Oldu dillərdə əzbər.
Insanlar ɵlkələrdə
Dyşdy qajƣьja, dərdə.
Gənçlər saldat alьndь;
Hər tərəfdə calьndь,
Ƣəmli-ƣəmli havalar.
Coq dutƣundu havalar.
Uşaqlar dinləjirdi.
Myəllim sɵjləjirdi.

—

Myharəbə qopanda
Əski car topraƣьnda
Jaşajan xalqlar bytyn,
Ivan, Sylejman, Ərtyn,
Qьrƣьz, qazaq, tyrk, tatar
Ermənilər və ruslar,
Səksəkədəjdi ançaq,
Bɵjyk dava olaçaq.

—

Yfyq də dɵnə-dɵnə,
Qalqьb gɵjyn yzynə,
Syzdy aeroplanlar,
Və jaƣdьrdь e'lanlar
Aƣ kaƣьzlar quş kibi,
Gɵjdə jorulmuş kibi,
Enirdi gɵjdən jerə
Dyşyrdy kycələrə.





Gətyryb savadlьlar,
Oqujurdu nəki var.
Sorurdu bisavadlar
Davadan nə xəbər var?

## SALDAT GETDILƏR.

Şəhərlərdə, kəntlərdə
Çamaat dyşdy dərdə.
Hamь qalqdь ajaƣa
Durdu hazьrlaşmaƣa.
Kəntlilər xьrmanьnь,
Qustarlar dykanьnь
Joqsullar tarlasьnь,
Maldarlar obasьnь,
Işcilər sindanьnь,
Baƣcьlar bostanьnь.
Ajaq jalьn baş acьq,
Fikirləri qarьşьq,
Bys-bytyn buraqdьlar.
Şəhərlərə aqdьlar,
Jaƣьş kibi sel kibi,
Oldular coq əsəbi.

—

Fabriqalar qapandь
Coq zavodlar baƣlandь.
Lakin top, tyfəng, gyllə.
Bunun kibi habelə
Ɵlym ƣazь cьqaran
Jekə tanqlar qajьran,
Sualtь paraxodlar
Japan bɵjyk zavodlar
Sajça daha coqaldь,
Elləri bɵhran aldь.
Şadlьq sevinç qurtardь,
Ƣəm gɵnylləri sardь.

—

Gənçlər davaja getdi,
Çanьnь qurban etdi.
Zavodda-fabriklərdə,
Kəntlərdə-şəhərlərdə
Jalьnьz baçalar qaldь
Elləri bohran aldь.

Kimdi dava ejləjən
Mənəm-mənəm səjləjən.
Əli qabarlьlarmь?
Qan icən varlьlarmь?
Nə jetimlər, nə dullar
Nə kəntdəki joqsullar
Nə şəhər işciləri
Myharəbə xəbəri
Cьqьnça sevinmədi,
Qorqusundan dinmədi.

## DAVAJA SƏBƏB.

Dynjanьn hər jerində
Qapitalist ellərində
Fabrik-zavod çoqalmьş,
Mallar təkylyb qalmьş,
Bunlarь alan joqdu,
Qejdinə qalan joqdu.
Mal çyryjyr ambarda
Xariçi bazarlarda
Malьn miqdarь artmьş,
Burzuj qaşьnь catmьş,
Od cьqьr gozlərindən,
Dyşynyrdy dərindən.

Qapitalist hokymətlər
Arajьrdь təzə jer,
Aldatmaq istəjirdi,
Mal satmaq istəjirdi.
Çahangir devlətlərin
Zalьm hokymətlərin
Yrəgi alьşьrdь,
Hər zaman calьşьrdь,
Jeni bir bazar tapsьn,
Jaxşь tiçarət japsьn.
Bunlar qan təkə-təkə
Arardь mystəmləkə.

## ALMANJA və INGILTƏRƏ

Dynjada iki bəjyk,
Insanlara aqьr jyk
Olan hokymət vardь.
Ikisi də davakardь.
Almanja, ingilis.
Bəli, bu iki iblis
Mənəm-mənəm dejirdi
Vuruşmaq istəjirdi.
Almanja gyçlyjdy.
Dьrnaqь ylgyçlyjdy.
Dyşyndy Ingiltərə
Fikr elədi bir kərə
Gordy ki, Almanja,
Hokm eləjir dynjaja.
Əvvəldən Ingiltərə,
Hakim idi hər jerə.
Nə qədər mystəmləkə
Varsa onundu bəlkə.
Fəqət Almanjanьn
Jə'ni Vilhelm aqanьn
Mystəmləkəsi azdь,
Geçələri jatmazdь.

14-çy illərdə
Hər əlkədə hər jerdə,
Avqust ajьndan sonra
Bytyn qarьşdь ara.
«Jaxşь» tədbir gəryndy,
Iki jerə bəlyndy
Devlətlər həkymətlər.
Xəbərin joqmu məgər?
Tyrkijə-Almanja
Avstrja bir oldu
Ingiltərə, Fransa
Rusja əlbir oldu.
Təkyldylər araja
Başladьlar davaja.

## HƏRBƏ GEDƏNLƏR.

Hərbə gedən kim idi?
Dava edən kim idi?
Bojnu joqunlarmьdь?
Bizmidik,onlarmьdь?
Işcilər kəntlilərdi.
Səngərdə hərb edərdi.
Kimincindi bu dəjyş,
Bu qьşqьrьq bu səjyş?
Bu qan, inilti, fərjad,
Bu kəməklik, bu imdad
Həpsi onlar icindi.
O nə dumanlь gyndy...
Əlym jaqьrdь gəjdən,
Hər şəhərdən hər kəjdən.
Zavallь əlkələrdən
Jetmiş miljon nəfərdən
Bir ordu jaratdьlar
Bir-birinə qatdьlar.



Bu qьzьl dyşgynləri,
Jetmiş miljon nəfəri,
Çəbhələrdə qьrdьlar.
Uçadan hajqьrdьlar:
«Vətən millət jolunda
Salьnmьşdьr bu dava».
Halbu ki, həpsi jalan
Həpsi jalandь inan.

—

Uşaqlar! bilin bunu
On miljon əldy getdi.
On jeddi miljonunu
Bu dava şikəst etdi.



Kiminin baçaqь joq,
Burnu joq, qulaqь joq.
Kiminin qolu sьnьq,
Kiminin beli qьrьq,
Kiminin gəzləri kor...
Zənginlər evdə xor-xor,

Jatьrdьlar bu zaman,
Eşitməzdilər fəƣan...

—

Myharəbə bunlarьn,
Bu bojnu joƣunlarьn,
Mənfəəti ycyndy,
Səadəti ycyndy,
Davanьn ən şiddətli,
Ən qьzƣьn, ən dəhşətli,
Bir caƣьnda zənginlər,
Çəbhələrdən bixəbər,
Tiçarətə gedirdi,
Alьş-veriş edirdi.



## MOLLALAR və KEŞIŞLƏR.

Ruhanьlar, keşişlər,
Mollalar da myxtəsər,
Qapitalistlərə kəmək
Edirdilər, nə etmək?



Çamaat coq avamdь,
Mɵhkəm dincijdi, xamdь,
Mollaja inanьrdь,
Sɵzynə aldanьrdь.
Xalqь Məhəmməd, Isa
Məsçid, mynbər, kəlisa
Vətən, millət sɵzilə
«Inasnijjət» sɵzilə,
Hərbə gəndərirdilər,
Çənnət və'd edirdilər.
Toplara, tyfənklərə
Ƣaz dolu fişənklərə
Dua oqujurdular
Ylәmalər axundlar.

## BOLŞEVIKLƏRIN FIKRI.

Tək birçə bolşeviklər,
Lenin o bɵjyk rəhbər,
Qarşьda olmaq yzrə,
Dejirdi işçilərə:
Bu toplar, bu tyfənklər,
Bu ƣazlar, bu fişənklər,
Dyşynynyz bir kərə,
Gərək qapitalistlərə
Tamamilə cevrilsin,
Əski dynja devrilsin.
Ɵz devlətləri ycyn
Hɵkymətləri ycyn
Ruhanьlar, kəşişlər,
Calьşьrlar bu qədər,
Bir coq jalan satьrlar
Kytləni aldatьrlar.
**Jolundan dɵndərirlər**
**Davaja gɵndərirlər.**

—

Lenin o bəjyk rəhbər,
Dəjyşkən bolşeviklər,
Myharəbə ziddinə,
Qəzet cьqarьb jenə
Dynjaja bildirdilər;
Lenin o bəjyk rəhbər,
Bilirdi ki, bu dava
Jalьnьz burzuazija
Mənfəəti ycyndyr,
Səadəti ycyndyr.
O, acьqdan dejirdi
Jazьrdь gəstərirdi.
Bu hərb bazar ycyndyr
Qьzьl pullar ycyndyr.
Mystəmləkə qoqasь,
Imperialist davasь,
Elləri talan etmək,
Evləri viran etmək
Ycyn japьlmьş fəqət.
Bu səzdə bir həqiqət
Ьşьqь parlajьrdь.
Lenin rəhbərin səzy
O zaman səzyn dyzy,
Gur-gur guruldajьrdь.
Lenin joldaş o zaman
Almanja-Rusijə
Işcilərinə hər an
Eləjirdi tevsijə.
Işcilər qardaşdьrlar
Joldaş və sirdaşdьrlar.
Onlarьn tyfənkləri,
Toplarь fişənkləri,
Dyşmənlərə cevrilsin,
Qapitalizm devrilsin.



Burzuazja ənyndə,
Işci daq kibi olsun;
Imperialist davasь
Vətəndaş hərbi olsun.

## JALQЬZ KƏNT.

Hərbin ycynçy ili,
Əsirdi xəzan jeli,
Demək xəzan gəlmişdi
Joldan azan gəlmişdi.
Bozarmьşdь jamaçlar,
Saralmьşdь aqaclar,
Titrəjirdi budaqlar,
Təkylyrdy japraqlar
Gəj yzy qaralmьşdь,
Daqь duman almьşdь.

—

— Bu kəntdə kim var?
—Hec kim...
Coq sьqьlьr yrəgim
Jalьnьz dyşgyn qoçalar
Və bir də uşaqlar var.
Bytyn gənçlər davada
Nə jaman dyşdyk oda...

## HƏRBDƏN GƏLƏNLƏR.

Budur Osman, Alimçan,
Qajьdьrlar davadan
Birinin saq qolu joq,
Birinin baçaqь joq
Aqsajьr jerijəndə.
Gəlib catdьlar kəndə.
Balaçalar, qoçalar
Hamь:—hərbdən gələn var
Dejib, cьqdьlar evdən
Balaça Muxtar haman

Aqlajьb, anasьna
Qьşqьrdь:—aj ana
Tez ol məni də apar
Gөrym kimdir saldatlar.

—

Doqqazьn өnynə baq,
Qarь-qoça, qьz-uşaq.
Hamь gəlmiş, jьqьlmьş
Daş ystynə cьqьlmьş,
Hamь bojlanьr, baqьr
Qəmgin yrəklər aqьr.

—

Alimçan cantasьndan
Bir şej cьqarьb haman
Ajparaja uzadьr,
Bu şej bir baqlamadьr,
Ystyndə bir məktub var
Məktubu oqujurlar.

MƏKTUB.

— Өmyr dostum Ajpara
Mən daha bundan sonra
Səni gөrməjəçəgəm.
Sənə verməjəçəgəm
Əllərimi bir daha.
Өlym kibi əzdaha
Məni səndən ajьrdь
Səni məndən ajьrdь.
Өlymdən hec qorqum joq,
Fəqət nigaranam coq,
Sizin həjatьnьzdan.
Sizi dyşynyb inan
Son nəfəsimdə belə
Өlyrəm əzab ilə.





Tale sizə jan baqdь
Sizi jetim buraqdь
Bu şineldən kəs paltar
Gejinsin oqlum Muxtar.
Gəlib etməjin fəqət
Məzarimi zijarət
Cynky bu qara topraq
Əsla danьşmajaçaq.
Bizi jaxşь satdьlar
Jaxşьça aldatdьlar.
Pejeqəmbərin adilə
Allahьn imdadilə

Bizi hərbə sevq edən,
Ɵzləri kejfə gedən,
Devlətlilər, alcaqlar
Bir gyn çəzaja catar.
Bunlarь mən bilməzdim
Sonra anladьm, sezdim
Mən carь gyçly sandьm
Təəssyf ki, aldandьm.
Artьq olan olmuşdur,
Ɵlym məni bulmuşdur.
Saƣ olun dərdim coqdur,
Lakin umudum joqdur,
Bir də gɵrməgə sizi.
Sьqьram əlinizi....

---

Ətrafa jьƣьlanlar,
Işdən myxbir olanlar,
Iclərini cəkdilər
Aƣlajьb jaş tɵkdylər.
Carlara, sultanlara
Amansьz xaqanlara,
Nifrət jaƣdьrьrdьlar,
Lə'nət jaƣdьrьrdьlar.
Onlar aldatьlmьşdь.
Qaşlarь catьlmьşdь.

---

Yc-dɵrt ilin icində
Baqsan şəhərə, kəndə
Hər tərəfdə bir açlьq
Hɵkym syryrdy artьq.
Kəntlər başsьz qalmьşdь,
Zavodlar azalmьşdь.
Mal-qara məhv olmuşdu,
Açlьƣa dutulmuşdu,
Bytyn el, bytyn ɵlkə.
Baş vermişdi təhlykə....



## FEVRAL INQILABЬ.

Fevral ajь jaxşь bil,
Hər janь basdь tə'til
Polislər-zandarmalar
Mɵhkəm silahlandьlar,
Catmadьlar murada
Məhv oldular arada.
Qalqьnça Petroƣrad
Dustaqlar oldu azad.
Şəhər bir azdan sonra
Kecdi isjancьlara.
Silah ambarь hətta
Catdь proletariata.
Mytləqijjət joq oldu,
Qara zylmət joq oldu....

## MYVƏQQƏTI HƟKYMƏT.

Quruldu sonra fəqət,
Myvəqqəti hɵkymət.
Vuruşan işci oldu
Xejrini ɵzgə buldu.
O zaman bolşeviklər
Syrgyn edilmişdilər.
Menşeviklərsə tamam,
Gɵryb başqa sərənçam,
Işciləri satdьlar
Kəntlini aldatdьlar.
Qapitalist alcaqlara
Canaqlь baƣalara...
Səkkiz aj kecdi ançaq
Milliləşmədi topraq,
Başa dyşdy kəntlilər
Xainmiş menşeviklər.

17374

Lenin dedi:
«Myvəqqəti hөkymət,
Bulmalьdьr nihajət
Hөkymət bundan sonra
Kecməli Şuralara!»
Lenin xariçdə idi,
Aprel ajьnda gəldi,
Işcilər onu dərhal
Elədilər istiqbal.
Gөryşynə gətdilər
Narazьlьq etdilər.



## KƏNT ISJANЬ.

Şaxta... qьşьn sojuqu,
Bir qac joqsul coçuqu
Toplanmьşdьr meşəjə
Baqьnьz bu dəstəjə:
Halqa vurub oturmuş,
Biri ajaqa durmuş,



Çoşqundur, əsəbidir,
Qahramanlar kibidir.
O, məsləhət ejləjir:
Kəskin-kəskin sөjləjir:
—Joldaşlar! durmaq olmaz
Qejrətə gəlin bir az
Qnjazdan, mylkədardan
Dujqusuz insanlardan
Joqsula kөmək olmaz!
Bu zulma dөzmək olmaz!
Vaqtdьr iş gөrməlijiz,
Əl-ələ verməlijiz!
Ona gөrə bu geçə,
Bir neçəmiz gizliçə,
Kənt gedinçə ujquja,
Hec dyşmədən qorquja,
Ajaqa durmalьjьz
Gedib od vurmalьjьz
Evlərinə bəjlərin.
Bu sөzy dərin-dərin,
Uşaqlar dyşyndylər.
—Eh, qorqursunuz məgər?
—Birdən bizi dutarlar
Mişqa, onda nə olar?
— Hec nə, olaçaqdьr
Baqalьm kim qocaqdьr:
Kim getmək istəmәjir?
—Bizim fikrimiz birdir!
And iciniz ki, ançaq
Bu sirr acьlmajaçaq.
— And icin!..
—And icirik!!..
Çandan başdan kecirik...
Geçə jarь kylək əsir,
Şaxta qьlьnç kibi kəsir

Gəj yzyndə nə ьşьq var,
Nə ьşьq, nə jaraşьq var,
Gəjy sarmьş qara bulut,
Artьr vara-vara bulut,
Uƣuldajьr dəli ruzgar,
Kəndi sarmьş qaranlьqlar...
—Vanqa-Vanqa!
—Qalq ajaƣa!
—Dajan-dajan!
Joldaş Ivan...
Vanqa gəldi, getdilər
Gizlin səhbət etdilər.
—Sən məni gozləjərsən,
Ətrafь izləjərsən
Joldaşlarьmьz başqa
Bir evə od vurmaƣa
Getdilər, gərək biz də
Dajanaq əhdimizdə.
Dajanarsan sən gendə
Bir qaraltь gərəndə
Tez janьma gələrsən,
Mənə xəbər verərsən.

Vanqa-Ivan bir qədər,
Ətrafь sejr etdilər.
Ivan uzaqdan baqdь
Vanqa kibriti caqdь
Alav dutdu tajanь
Gərmədilər Vanqanь.







Ev alьşdь tajadan
Qacdь Vanqa və Ivan.
Dabana typyrdylər
Evlərinə girdilər.
Kylək uƣuldajьrdь,
Taja cьtьrdajьrdь.
Alavlar dalƣa-dalƣa,
Dumanlar halqa-halqa,
Gəj yzynə qalqьrdь,
Jana-jana baqьrdь,
Əmlakьna mylkədar.
Gyçlənirdi alavlar...

## IÇLAS.

Petroƣradda Lenin,
Bytyn bolşeviklərin,
Içlasьnь caƣьrdь,
Qalqьb bar-bar baƣьrdь:



—Myvəqqəti hokymət
Fəlakətdir—fəlakət
Ona qarşь cьqmalь
Onu kəkdən jьqmalь!
O, davanь uzadьr,
Kəntliləri aldadьr,
Zəhmət cəkən biz olduq,
Nəticədə nə bulduq?

Hөkymət başьnda kim,
Kimdir ølkədə hakim?
Jenə də fabriqantlar
Jenə mənəm-mənəm var.
Menşeviklər bu zaman
Janьrdь açьqьndan.
Lenini dutmaq ycyn
Calьşьrlardь hər gyn
Onu gydən coq oldu
Lenin birdən joq oldu.

## RƏHBƏR GIZLINDƏ.

Işcilərdən bir nəfər,
Zəhmət cəkib bir qədər,
Kөmək etdi Leninə
Və apardь evinə.
Leninqrad janьnda,
Rizdiv stasjonunda,
Bicinci sifətilə
Kəntli qijafətilə
Burdan Liqaja kecdi,
Burda sakitdi, dinçdi.
Burda bir cardaq tikib,
Ətrafьna ot tөkyb,
Oraq, dərjaz habelə,
Kəntli alətlərilə
Cardaqь bəzədilər.
Bəzəjib dyzədilər,
Caj qojmaq ycyn haman
Cardaqьn qapьsьndan
Bir qazan da asdьlar
Gørənlər qanmazdьlar.
Lenin cьqьb o zaman
Ot bicirdi jalandan.



Burda boş durmajьrdь
Işsiz oturmajьrdь:
Joldaşlarь hər dəfə,
Gəlirdi məsləhətə,
Kөməklik ejləjirdi
Gizlində işləjirdi.
Pajьz gəldi jaqlaşdь
Finlandijaja qacdь,
Dilimizin əzbəri
Işcilərin rəhbəri.

## BOLŞEVIKLƏR.

Myvəqqəti hөkymət
Xalqa verdi əzijjət
Nə davalar dajandь
Nə topraqlar pajlandь
Əskərlər çəbhədə aç,
Işci-kəntli jalavaç
Jenə hərbə gedirdi
Døjyş davam edirdi...
Bu zaman bolşeviklər,
Sakit durmuşdu məgər?
Onlar calьşьrdьlar,
Nə qədər gyçləri var.
Əskərlər arasьnda
Onlar işləjib hətta
Isjan fikri jajьrdь,
Baqьşlarda inqilab
Ьşьqь parlajьrdь...
—Alman əskərlərilə
Dava etməjin belə
Onlar da joqsul—«açiz»,
Işcilərdir biliniz,
Və jaxud kəntlilərdir
Yrəgi dərdlilərdir.
Sizin dyşməniniz coq,

Gərməgə gəzynyz joq,
Fabriqantlar-zənginlər,
Sizi etmiş dər-bə-dər
Bu davadan sizə nə?
Onlarьn əlejhinə
Ceviriniz bu hərbi!
Olunuz qardaş kibi.



ISJANCЬLAR.

17-çi sənədə
Avqust ərəfəsində
Isjanlar qopdu jenə,
Aqalarьn əlejhinə.



Işci-kəntli qalqaraq,
Əllərdə qьzьl bajraq,
Bəjlərə qarşь bajraq,
Qapitalistləri jьqmaq,
Fikrilə—istəgilə
Firqənin kəməgilə,
Davaja qalqьşdьlar
Yrəkdən calьşdьlar.
Əskərlər də tamamən
Qajьdьrdь çəbhədən.
Səngəri buraqьrdь,
Kəndə tərəf aqьrdь.
Işci-kəntli isjanь,
Qaplajьrdь hər janь..
Bolşeviklər çoşurdu
Işcilər vuruşurdu...

LENIN GƏLMIŞDI.

Lenin rəhbər bu zaman
Cьqьş japdь durmadan;
Səjlədi: «Qan vaqtьdьr,
Acьq isjan vaqtьdьr
Artьq gəzəl firsətdir
Gəzləmək çinajətdir».

17-çi IL ON OQTJABR.

Bu keşmə-keşli gyndə
Firqə qomitəsində
Cьqdь belə bir qərar:
«Həkyməti alsьnlar
Əz əllərinə artьq,
Jetər zənçirdə qaldьq».
Işcilər silahlandь
Gəzlər dutuşdu, jandь,

Inqilab atəşilə.
Hərbi hissə də belə
Bolşeviklərdən oldu:
Viçdansьzlar qovuldu

## AQLARЬN ZYLMY.

Hər tərəfdən səs jyksəlir;
—Aqlar gəlir, aqlar gəlir
—Qacьn, qacьn!
—Hara qacaq?
Qarь-qoça, arvad, uşaq,
Qarьşmьşdьr bir-birinə
Biri gedir, girir hinə
Biri girir, zir-zəmijə
Dyşmən gəlir deja-deja
Biri cardaqda gizlənir
Gyllə gəgdən səpələnir.

—

Aqlarьn atlьlarь
Gəlirlər kəndə sarь
Başda cijni paqonlu
Jekə baş, kəl bojunlu
Gəlib kəndə catdьlar
Xalqa qan aqlatdьlar.
—Burda partizanlar var!
Onlar hara qacmьşlar?
Tez olun xəbər verin
Jerlərini gəstərin!
Joqsa kəndə bu saat
Salaçaqьz parta-part.
Jandьrьb kəndinizi
Edəçəgiz kyl sizi...
Çavab verin durmajьn
Bojununuzu burmajьn



Hiləkar qьrmьzьlar
Sizdə bəjyk gynah var.
Sizi doqramaq gərək
Bolşeviklərə kəmək,
Edirsiniz gizliçə.
Jaxşь, sizə indiçə
Başlaram toj dutmaqa.
—Mərhəmət edin aqa,
Burda partizan joqdur,
Burda coluq-coçuqdur
Qalan əmin olunuz
Jalan deməz qulunuz.
—Xajьr burda olmuşdur,
Bir coqu dutulmuşdur
Həmin partizanlarьn,
O məl'un insanlarьn,
Başьnь kəsəçəgiz..
—Aqa rəhm ejləjiniz;
—Aj uşaqlar gəliniz
Qurumuşmu əliniz?
Səjkəjiniz divara
Bu məl'un ixtijara
Bir qədər məşq ediniz
On gyllə eşq ediniz.
Bu zavallь qoçanь
Bu jyz jaşar insanь
İnçitdilər bir qədər
Divara sevkədilər.
Bir gyllə şaqqьldadь,
Ixtijarьn fərjadь,
Ahь, uçaldь gəjə
«Zalьmlar!» deja-deja.
—Bir daha sinəsinə,
Bir daha kəlləsinə
Bir daha başьna vur,
Gəzyňə, qaşьna vur!..

—

Bu alcaq hərəkətdən
Bu uqursuz dəhşətdən
Gəgdə gynəş utandь,
Onun da qəlbi jandь
Bu levhəjə bu hala,
Və sarala-sarala
Bulutlarda gizləndi
Hər tərəf kəlgələndi...
Hər jer qaranlьqlaşdь
Bulutlar da caxnaşdь...



—Artьq həvəsdir, bəsdir,
O aqlajan nə səsdir
—Baba-baba!
—Dut onu
Yz mьrdarьn bojnunu!
Ona da bir gyllə vur!
Boquq səsini susdur!
—Ana!—dejərək uşaq
Bir səs cьqardь ançaq.
Uşaq jьqьldь jerə...

Anasь birdən-birə
—Çan balam!—dejə-dejə
Iqdam etdi səjməgə,
Bu jaramaz aqlarь.
Aqlarьn qomisarь
Qadьnь nişan aldь,
Qadьn jьqьldь qaldь...
—Kəndi jandьrmalьjьz
Alavlandьrmalьjьz!..
Bu kəntdə bir nəfər çan
Qalmasьn gərək inan!..

---

Atlьlar hazьrlandь
Hər tərəf jandь-jandь,
Bir kəndi kyl etdilər
Gylə-gylə getdilər...

## IŞCI BALALARЬ.

Bir keşmə-keşli gyndə,
Zavodun həjətində,
Rəçəb, Kazьm, Qahraman,
Arşaq, Vasili, Vartan
Səhbət ejləjirdilər.
Bunlar nə dejirdilər?
Biri səzə başladь
Hamьsь javaşladь
—Qulaq asьn joldaşlar!
Sizinlə səhbətim var:
Bu gyn bizim atamьz,
Qardaşьmьz, anamьz
Dəjyşyrlər çəbhədə.
Biz uşaqlarsa evdə,



Tərpənməjib durmuşuq,
Boş bikar oturmuşuq:
Biz də kəməgə gedək
Onlara jardьm edək
—Doqrudur!
—Dyzdyr, dyzdyr!..
Bu səz, hesabь səzdyr.

———

Biri-birinə baqdь,
Hamь ajaqa qalqdь;
Joldan bunlar gedərkən,
Qabaqlarьna birdən
Bir dəstə uşaq cьqdь
Bunlar kim olaçaqdь?
Xəz paltolu, qastjumlu
Hamьsь burzuj oqlu.
Burzuj uşaqlarь:

———



—Bunlara baq, bunlara
Dolaşьrlar avara,
Bunlardan nə olaçaq
—Bilməjirsənmi, ançaq
Bunlardan patsan olar,
Jaxud xuliqan olar.
Isjancь balalarь!
—Ada gəlin bunlarь
Bir qədər əzişdirək
Bunlara çəza verək

———

Bizim joqsul uşaqlar
Dejildilər xəbərdar
Onlarьn hiləsindən.
Qabaqlaşdьlar birdən.

ZAVOD UŞAQLARЬ:

—Getməjiniz, durunuz,
Aj uşaqlar vurunuz!
Bizimkilər bu zaman
Qьzьşdьlar coq jaman
Bəjyk vuruşma dyşdy
Onlar qacьb syryşdy.
Hər tərəfdə bir uqultu
Bir fьrtьna, bir gurultu,
Biri qovur, biri qacьr,
Biri gəglərə əl acьr
Biri qalqьr, biri jatьr,
Biri nişan alьr, atьr.
Bir burzuju əldyrmyşlər,
Zylmynə də son vermişlər.
Bir tərəfdə zalьm aqlar,
Bir tərəfdə qьrmьzьlar.
Bizim zavod uşaqlarь
Məhv etməkcin alcaqlarь

Qьrmьzь Əskərlər ycyn
Gyllə daşьjьrlar bu gyn
Hamь inqilab istəjir
«Şuralar qurulsun!» dejir

## SARAJA HYÇUM.

Petroqrad bu geçə,
Dyşynyrdy sakitçə.
Hərəkətsiz kycələr
Qəribədir nə qədər.
Nevskinin sularь
Parlajьr inçivarь
Orda matros əskər var
Coq açьqlьdьr onlar
Qьş sarajь ьşьqdьr,
Işləri dolaşьqdьr.
Orda burzuazija,
Nələr dyşynyr aja?
Onlar içlas edirlər
Dərin fikrə gedirlər...
Qaranlьq çəkilirdi,
Işçilər təkylyrdy:
Rajonlardan şəhərə.
Alavlь bir mənzərə...
Zьrhlь avtomobillər
Burzuju basmaq istər.

## 25 OQTJABR

Isjan qopdu şəhərdə...
Vuruşma kycələrdə...
Bu vətəndaş hərbidir
Tarixin tələbidir



## HƏRBI INQILAB ŞURASЬ.

Telefon stasjonlarь
Lazьmlь rajonlarь,
Banqlarь birər-birər
Toplanьb zəbt etdilər.
Posta idarəsini
Teleqraf mərkəzini
Voqzalь tamamilə,
Qomitə aldь ələ.
—Hyçum, hyçum saraja!
Əlsyn burzuazija!!..
Kəntlijə Oqtjabr,
Hyququnu qandьrdь.
Işçini odlandьrdь.
Olmasajdь işçilər
Jazьq kəntlilər məgər
Bir iş japa bilərdi?
Japsajdь əzilərdi.
Burda Leninin səsi
Onun dəmir firqəsi
Rəhbərlik ejləmişdir,
Dyşməni bəlləmişdir.
Işlərə qyvvət vermiş
Kytləjə jol gəstərmiş.

—

Oqtjabr olarkən
Qanun verildi birdən
Artьq tədbir gəryldy
Davaja son verildi.

—

Mylkədarlarьn jeri
Bytyn tikintiləri
Məsçidin, kəlisanьn

Keşişin və mollanьn
Əmlakь zəbt edildi
Joqsullara verildi.
Qapьda junkerlər var
Onlar buraqmajьrlar
Hyçum, hyçum iləri
Bolşevik nəfərləri!
Hyçum, hyçum juqarь!..

---

Avroranьn toplarь
Acmьş jekə aqzьnь
Uzatmьş boqazьnь,
Bir baş saraja doqru.
Junkerlər oqru-oqru
Aqşam ysty qacьrlar,
—Junker orada kim var?
—Myvəqqəti hekymət!..
Işdən əl cəkir fəqət.

---

Onlar da təslim oldu,
Saraja son qojuldu.
Son qojulur davaja,
Oqtjabr dynjaja,
Jeni həjat gətirdi,
Qol və qanat gətirdi

---

Inqilabь jaradan
Al bajraqь uçaldan
Əməkci kytlələrdir.
Oqtjabrdan sonra
Iş kecdi Şuralara,
Quruldu bilirsiniz
Şura hekymətimiz.





Bu bajram uça bajram
Dejil balaça bajram.
On beş il kecir ondan
O boranlь zamandan.
O gyndən bəri biz də
Topraqda və dənizdə
Coq şejlər jaratmьşьz
Daqь-daqa qatmьşьz.
Işi-işə vurmuşuz
Fabrik-zavod qurmuşuz.
Teleqraflar cekərək,
Stansjonlar tikərək,
Cajlarь işlədiriz,
Işi genişlədiriz.
Qollarьmьzda gyç var
Əlimizdə cəkic var
Acьlьr qlub, məktəb,
Artьr bir az da tələb.
**Əski dynja qoçalьr**
**Jeni həjat uçalьr**
**Bu bajram uça bajram**
**Dejil balaça bajram.**

**1932. Sentjabr.**

---

## KITABЬN ICINDƏKILƏR

*Səhifə*


| | |
|---|---|
| Başlanqьç | 3 |
| Dynja davasь | 4 |
| Saldat getdilər | 5 |
| Davaja səbəb | 6 |
| Almanja və Ingiltərə | 7 |
| Hərbə gedənlər | 8 |
| Mollalar və keşişlər | 10 |
| Bolşeviklərin fikri | 11 |
| Jalqьz kənt. Hərbdən gələnlər | 13 |
| Məktəb | 14 |
| Fevral inqilabь. Myvəqqəti hɵkymət | 17 |
| Kənt isjanь | 18 |
| Içlas | 21 |
| Rəhbər gizlində | 22 |
| Bolşeviklər | 23 |
| Isjancьlar | 24 |
| Lenin gəlmişdi. 17-çi il on Oqtjabr | 25 |
| Aqlarьn zylmy | 26 |
| Işci balalarь | 29 |
| Zavod uşaqlarь | 31 |
| Saraja hyçum. 25 Oqtjabr | 32 |
| Hərbi inqilab şurasь | 33 |
| Son | 35 |

1932
512